BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Humanitar elmlər seriyası 2013*

UOT 94 "19/…"

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİNİN SONLARINDA BOLQARISTANIN DİPLOMATİYA SAHƏSİNDƏ UĞURSUZLUQLARI

**Z.N.NURİYEVA**
***Bakı Dövlət Universiteti***
***zoyanuriyeva@mail.ru***

*Məqalədə diplomatiya sahəsində ciddi problemlərlə üzləşmiş Bolqarıstan hakim dairələrinin monarxiyanın möhkəmləndirilməsi naminə xarici siyasətdə müəyyən dəyişiklik etmələrindən bəhs edilir. Hərbi-strateji mövqeyə malik olan Bolqarıstan ərazi iddialarını təmin etməyə çalışırdı. Lakin əvvəlki uğursuzluqlarının əvəzini çıxmaq istəyi ilə hökumətin keçirdiyi siyasətin ümidsizliyi ölkəni böhran vəziyyətinə gətirib çıxarmışdı. Həmin dövrdə digər dövlətlərlə imzalanan sülh müqavilələrində də Bolqarıstanın maraqları nəzərə alınmamış, nəticədə o, ərazi itgilərinə məruz qalmış və milli faciə ilə qarşılaşmışdı.*

**Açar sözlər:** məğlub olmaq, mübarizə, təbliğat vasitəsi, üsyan, səviyyə, daxili irtica

XX əsrin əvvəllərində Balkan yarımadasında kəskinləşən siyasi vəziyyətdən Bolqarıstan da öz məqsədləri üçün istifadə etməyə çalışırdı. Tarixi inkişaf yolu keçmiş Bolqarıstan eyni kökdən olmalarına baxmayaraq Cənub slavyanları içərisində mədəni, iqtisadi, siyasi inkişaf səviyyəsinə görə fərqlənirdi. Lakin Balkan ölkələri içərisində daha qabaqcıl və strateji mövqeyə malik olmasına baxmayaraq Bolqarıstan böyük inkişaf səviyyəsinə malik deyildi. İkinci Balkan müharibəsindəki məğlubiyyətdən sonra Osmanlı ərazilərinin bölüşdürülməsi uğrunda gedən mübarizədə müttəfiqləri ilə münasibətləri pozuldu. Bu məğlubiyyət hakimiyyətdə olan şovinist qüvvələrin iştahasını daha da artırmışdı və hökumət Osmanlı Türkiyəsinə qarşı bir sıra planlar hazırlayırdı. Birinci dünya müharibəsi Bolqarıstanın siyasi hakim dairələri içərisində II Balkan müharibəsindəki uğursuzluqların əvəzini çıxmaq ümidi yaratmışdı. Lakin müharibə Bolqarıstanın sosial-iqtisadi və siyasi vəziyyətinə ağır zərbə vurmuş, 1918-ci ildən hərbi-siyasi ziddiyyətlərin kəskinləşməsi cəbhə xəttindəki uğursuzluqlara və nəticə etibarilə məğlubiyyətə uğramasına gətirib çıxarmışdı (8, 416).

XX əsrin əvvəllərində Bolqarıstan mütləqiyyət xarakterli idarəçiliyə malik idi. Məlumdur ki, 1908-ci ildə Bolqarıstanın müstəqilliyi elan edildikdən sonra I Ferdinand Koburq çar oldu (10, 286). Ölkədə nümayəndəli orqanın, siyasi partiyaların fəaliyyət göstərməsinə baxmayaraq çar nəzarəti öz əlinə götür-

müşdü. O, konstitusiyanın ona verdiyi səlahiyyətlərə münasibət göstərmədən ölkədə iqtisadi istehsalın, mədəniyyətin aşağı səviyyədə olmasından, burjua partiyalarının zəifliyi, demokratik ənənələrin formalaşmamasından istifadə edərək öz hakimiyyətini daha da möhkəmləndirirdi (10, 319-320). Gizli diplomatik sənədləri şəxsi arxivində saxlamaqla mütləqiyyət idarə üsulunu dərinləşdirir, özünü bacarıqlı dövlət xadimi və diplomat hesab edir və S.Stambolov hökumətini istefaya göndərərək ölkənin təkhakimiyyətlilik siyasətini yeridirdi. Daxili siyasi qüvvələr arasında ayrı-seçkilik yaradan çar hakim dairələri almanpərəst burjuaziyanın maraqlarını dəstəkləyən Almaniya və Avstriya-Macarıstanın köməyi ilə «Böyük Bolqarıstan» yaradılması haqqında sərsəm planlarını reallaşdırmaq istəyirdilər (7, 385; 10, 287).

Balkan müharibəsində hərbi uğursuzluqdan sonra Balkan İttifaqı dövlətləri və Türkiyə ilə münasibətləri pozulan Bolqarıstan öz xarici siyasətində müəyyən dəyişikliklər etməli idi. Şübhəsiz ki, bolqar hökuməti ilk növbədə Osmanlı imperiyasına qarşı diplomatik fəaliyyətini artırdı və nəyin bahasına olursa olsun, İstanbulu ələ keçirməyə çalışırdı (3, 372). Almaniyanın agenti olan çar Ferdinand tərəfindən idarə olunan burjuaziya alman imperializminin dayağına çevrilirdi. Eyni zamanda Bolqarıstan Antanta və Mərkəzi koalisiyanın gözündə bütün Balkanlara açar hesab edilirdi (7, 501). Bu zaman Antanta və Üçlər İttifaqı Balkan yarımadasında strateji mövqeyə malik olan Bolqarıstan uğrunda kəskin diplomatik mübarizə aparırdılar (5, 379). Balkan İttifaqının ən iri dövlətlərindən olan Bolqarıstan güclü orduya, hərbi-strateji mövqeyə malik olmaqla bərabər hərbi-siyasi imkanlarına görə yaranmış koalisiyanın əsas mərkəzi fiquruna çevrilmişdi. Eyni zamanda İttifaq öz fəaliyyətində Rusiya, İngiltərə və Fransanın diplomatik yardımlarından da faydalanırdı (12, 319). Bolqarıstan bu iki blokdan birinin köməyi ilə özünün Makedoniya, Frakiya və Dobruçaya olan iddialarını təmin etməyə çalışırdı (4, 379). Amma ərazi iddiası etməklə bərabər şovinist siyasətin puça çıxdığını görən millətçilər bir müddət susmağa üstünlük verdilər. Çar Ferdinand da öz bəyanatında «yaxşı zamanlar» gələnədək gözləməyə çağırır, yeni avantüralar hazırlayaraq Almaniya və Avstriya-Macarıstanla yaxınlaşmaya üstünlük verirdi. Hərbi bloka daxil olan dövlətlərin Bolqarıstan uğrunda kəskin mübarizəyə başlamasından istifadə edən Rusiya da Bolqarıstanı öz tərəfinə çəkmək üçün mütəmadi olaraq diplomatik fəaliyyətini gücləndirirdi. Onun Bolqarıstana xüsusi əhəmiyyət verməsi bir tərəfdən digər Balkan ölkələrinə nisbətən Bolqarıstanın daha güclü orduya malik olmasından, digər tərəfdən isə onun strateji cəhətdən əlverişli coğrafi mövqeyindən irəli gəlirdi (6, 167; 12, 329).

Bu zaman kəsiyində Bolqarıstanın daxili vəziyyəti və xarici siyasəti haqqında birmənalı fikir söyləmək qeyri-mümkündür. Ölkədə millətçilik əhval-ruhiyyəsinin gərginləşməsindən istifadə edən hökumət yersiz şovinist bəyanatlara, təbliğat vasitələrinə əl atır, burjua partiyalarının liderləri də bu çağırışlara qoşularaq öz mövqelərində kəskin dəyişiklik edir və millətçilik dalğasını daha da gücləndirirdilər. Nəhayət, hökumətin istər dövlət idarəçiliyində, istərsə də

siyasi azadlıq və iqtisadiyyatın tənzimlənməsi sahəsində həyata keçirdiyi tədbirlərdən heç bir nəticə əldə edilmirdi (10, 323-324). Siyasi qüvvələr arasında əsasən sinfi mübarizə mövqeyində duran Bolqar Fəhlə Sosial-Demokrat Partiyası – tesnyaklar isə müharibə əleyhinə çıxır, müharibənin imperialist qüvvələrlə daxili irticanın birgə həyata keçirdikləri avantirüst siyasət olduğunu təbliğ etməklə bərabər həm də müharibədən hakimiyyət uğrunda mübarizədə öz məqsədlərinə çatmaqda istifadə etməyə çalışırdılar (8, 310).

XX əsr başlanandan keçirdiyi bu üçüncü müharibənin sonlarında beynəlxalq vəziyyət Bolqarıstanın daxili vəziyyətinin daha da kəskinləşməsinə səbəb oldu, belə ki, ölkə dərin böhran içərisində idi (7, 515). Artıq dövlət iqtisadiyyatın tənzimlənməsi iqtidarında deyildi. Ölkədə sosial gərginlik və qarşıdurma güclənir, hərbi ehtiyatlar tamamilə tükənir, orduda isə müharibə əleyhinə təbliğat genişlənirdi (11, 136). Bolqarıstan iqtisadiyyatı müharibənin dağıdıcı təsirinə məruz qalmış, sənaye müəssisələri öz imkanlarından çox aşağı səviyyədə işləyirdilər. Müəssisələrin çoxu xammal, yanacaq, işçi qüvvəsinin çatışmaması üzündən fəaliyyətini dayandırmışdı. Ölkədə yayılan müxtəlif epidemik xəstəliklər də əhali üçün əlavə çətinliklər yaratmışdı (7, 15). Bolqarıstan iqtisadiyyatının xarici kapitala, xüsusilə də alman kapitalına nüfuz etməsi güclənmiş və alman inhisarçı şirkətlərinin iqtisadiyyatın bir çox sahələrini tam nəzarətə götürmələri nəticəsində ölkə xammal mənbəyinə çevrilir, başlıca mövqeyi isə alman monopoliyası tuturdu. Onlar irihəcmli bolqar banklarını idarə edir və toplanan maliyyə kapitalının əksəriyyəti alman kapitalı sayılırdı. Bolqarıstanı öz müstəmləkəsinə çevirməyə çalışan alman imperializminin ölkəni talan etməsi, müəssisələrin çoxunun hökumət tərəfindən alman monopoliyasının sərəncamına verilməsi ölkədə infilyasiyanı daha da dərinləşdirdi. Beləliklə, Bolqarıstan iqtisadiyyatının düşdüyü ağır vəziyyətdən alman inhisarçıları istifadə edirdilər və artıq bir sıra müəssisələr onların nəzarətinə keçmişdi (8, 315). Ölkə daxilində hərbi sifarişləri yerinə yetirən müəssisə sahibləri də müxtəlif yollarla böyük qazanclar əldə etməyə çalışırdılar. Nəticədə yaranmış iqtisadi çətinliklər əhalinin həyat səviyyəsinin aşağı düşməsinə səbəb olurdu (7, 510-514).

İqtisadiyyatın əsas sahəsi olan kənd təsərrüfatının da tənəzzülə uğraması sənayeyə mənfi təsirini göstərirdi (4, 381). İş qabiliyyətli əhalinin orduya səfərbər edilməsi kənd təsərrüfatı üçün böyük çətinliklər, işçi qüvvəsi çatışmazlığı yaratmışdı. Sənaye sahələrindən isə yalnız müharibənin tələblərini ödəyən müəssisələr fəaliyyət göstərirdi. Digər sənaye müəssisələri isə bağlanmışdı. Belə oxşar problemlərlə demək olar müharibə iştirakçıları da üzləşmişdilər. Lakin buna baxmayaraq, tərəflər müharibəni axıra qədər davam etdirmək qərarında idilər. Həm sosial-iqtisadi, həm də hərbi-siyasi sahədə dərin böhran keçirən Bolqarıstana eyni böhranla üzləşmiş müttəfiqlərinin də kömək etmək imkanları azalmışdı. Hökumətin keçirdiyi siyasətin ümidsizliyi ölkəni çıxılmaz vəziyyətə salmış və nəticədə müharibənin son illərində ölkədə yaranmış böhranlı vəziyyətin daha da dərinləşməsi üçün şərait yaranmışdı. Eyni zamanda Almaniya və

Avstriya-Macarıstanda böhranlı vəziyyət nəticəsində Saloniki cəbhəsinin də bütün ağırlığı Bolqarıstanın üzərinə düşmüşdü. Ölkədəki narazılıqlarla bağlı bir çox şəhər və kəndlərdə tətil və nümayişlər keçirilir, əsgərlər arasında da gün-dən-günə etiraz dalğası yayılırdı. Bəzi siyasi qüvvələr, xüsusilə də tesnyaklar bütün bü narazılıqlardan istifadə edərək ön və arxa cəbhədə müharibə əleyhinə təbliğat aparırdılar (8, 311-312).

1917-ci ilin oktyabrında Rusiyada baş vermiş bolşevik inqilabının təsiri altında siyasi aktivlik daha da güclənir, müxtəlif ərazilərdə mövcud rejimə qarşı çıxışlar baş verirdi. Orduda müharibə əleyhinə təbliğatın güclənməsindən daha fəal istifadə edən tesnyakların rəhbərliyi altında hərbi hissələrdə əsgər komitələri yaradılırdı. Bolqarıstan hakim burjua-şovinist kompaniyasının vəziyyəti daha da çətinləşmiş, demək olar ki, ölkədə siyasi böhran yaşanırdı. Böhranın getdikcə dərinləşməsi ilə bağlı ölkədə istehsal azalır, dövlət borcu artır, infilyasiya yüksəlir və nəticədə sosial ziddiyyətlər də özünü göstərirdi. Hərbi polis rejimi, senzura qoyulması fəhlələrin əl-qolunu bağlamış, konstitusiya azadlıqlarından məhrum olan bolqar proletariatı isə öz narazılığını bildirmək imkanlarından mərhum xaric idilər. Kütlələrin inqilabi aktivliyinin güclənməsi nəticəsində Plovdiv, Qabrov, Zoqorye, Pleven, Sliven və başqa şəhərlərdə çörək və sülh tələbi ilə nümayişlər keçirilirdi (2, 213; 9, 7-8). Beləliklə, Bolqarıstanda getdikcə dərinləşən sosial-iqtisadi və hərbi-siyasi sahələrdəki böhran ölkə üçün fəlakətli nəticələrə gətirib çıxartdı. Bir tərəfdən böhranlı vəziyyətin dərinləşməsi, digər tərəfdən onun müttəfiqlərinin qüvvələrinin tədricən tükənməsi növbəti mərhələdə hərbi uğursuzluqlar üçün zəmin yaradırdı. Belə ki, 1918-ci ilin əvvəllərindən alman hökumətinin bolqar hökumətinə maliyyə yardımını, ordunun silah və geyim təminatını dayandırması orduda vəziyyətin daha da pozulmasına səbəb oldu. Əsgərlər komandanlığa tabe olmur, tez-tez qiyamlar baş verirdi (1, 86). Həm də Oktyabr inqilabından sonra Rusiyanın müharibədən çıxması və 1918-ci ilin martında Almaniya ilə separat sülh müqaviləsi bağlaması Almaniyanın son qələbəyədək olan inamını artırmışdı (8, 411). Bu zaman Saloniki cəbhəsindəki hərbi-siyasi vəziyyət heç də Bolqarıstanın xeyrinə deyildi. Bolqar ordusunun nəzarəti altında olan Serbiya və Çernoqoriya ərazisində əhalinin işğal rejiminə qarşı mübarizəsi dayanmadan artırdı (13, 297-301). Ölkədə şovinist əhval-ruhiyyənin qızışması nəticəsində xalq kütlələrinin geniş bir hissəsi hökumətin antislavyan və almanpərəst siyasətinə qarşı çıxırdı. Hökumətin dayaqlarının möhkəm olmadığını bilən Radoslavov hökuməti əsas məqsədlərini pərdələyərək gizlində Bolqarıstanı Avstriya-Macarıstan imperializminin düşərgəsinə sürükləyirdi (7, 500). Eyni zamanda Radoslavov kabinetinin üzvləri Sovet hökuməti ilə danışıqlarda iştirak etmişdilər. 11 fevral 1918-ci ildə Rusiya ilə Bolqarıstan arasında hər iki ölkənin mülkü əhalisinin vətənə qaytarılması haqqında razılıq əldə edilmişdir (14, 38).

Bolqarıstan diplomatiya sahəsində ciddi problemlərlə üzləşmişdi. Alman bloku ölkələrinin həm sovet Rusiyası ilə, həm də Rumıniya ilə apardıqları danışıqlarda Bolqarıstan nümayəndələri də iştirak etmişdilər. Lakin nə 1918-ci

il mart ayında Rusiya ilə imzalanmış Brest sülhündə, nə də may ayında Rumıniya ilə imzalanmış Buxarest sülhündə Bolqarıstanın maraqları, xüsusilə də Şimali Dobrucaya olan iddiaları nəzərə alınmamışdı (4, 382). Hökumət başa çatmamış müharibədən çıxmaqla tutduğu Pomorye, Makedoniya və Dobrucanı əlində saxlamağa çalışsa da 1918-ci ilin martında Brest–Litovsk sülh danışıqlarında Bolqarıstanın Şimali Dobrucaya olan iddiaları müttəfiqi Almaniya tərəfindən rədd edildi (11, 136). Diplomatiya sahəsindəki uğursuzluqlar baş nazir V.Radoslavovun istefaya göndərilməsi ilə nəticələnmişdi. 1918-ci ilin iyununda I Ferdinand Antanta ilə yaxınlaşmanın tərəfdarı olan Demokrat Partiyasının lideri A.Malinovu baş nazir, Radikal Partiyasının rəhbəri S.Kosturkovu isə onun müavini təyin etdi. Lakin müxalifət partiyalarının nümayəndələrinin ölkənin idarə olunmasına cəlb edilməsi də vəziyyəti yoluna qoya bilmədi. Yeni hökumət ölkənin siyasi kursunun dəyişdirilməsi və müharibənin dayandırılması üçün heç bir addım atmamışdı. Göründüyü kimi, siyasi böhranın kəskinləşməsindən qorunmaq üçün I Ferdinand Rodoslavov hökumətini istefaya göndərməklə və hakimiyyətə Antantaya meylli Malinov – Kosturkov hökumətini çağırsa da yeni kabinet də Bolqarıstanın Mərkəzi Koalisiyaya sadiqliyini təsdiq etdi.

1918-ci ilin avqustunda Bolqarıstandakı üç alman dviziyasından yalnız üç batalyon qalmışdı. Çar Ferdinand və hakim almanpərəst qüvvələr Avstriya dairələrinin köməyilə bütün Dobrucaya iddia etmək məcburiyyətində qaldı. Amma qoyulan bu məsələ alman ölkəsi tərəfindən yenə də etirazla qarşılandı. Dobruca məsələsi hələ Brestdə bolqar nümayəndəsi olmadan razılaşdırılmış, sonra isə Bolqarıstanın narazılığına baxmayaraq Buxarest sülhünə əsasən o Dobrucanın ancaq bir hissəsini alırdı (1, 88). Göründüyü kimi, A.Malinovun başçılıq etdiyi yeni hökumət alman blokundan uzaqlaşmağa, Antanta ilə yaxınlaşmağa meyl göstərirdi. Bu zaman Almaniya öz qüvvələrini tamamilə Salonikidən çıxarmaq qərarına gəldi. Bolqar ordusu isə hücum əməliyyatları keçirmək iqtidarında deyildi və sentyabr ayında demək olar ki, onların müqaviməti tamamilə qırılmışdı (8, 551-553; 12, 303).

1918-ci ilin sentyabrında Antantanın Saloniki cəbhəsini yarması vəziyyəti daha da ağırlaşdırdı. Qarşı tərəfin hücumu qarşısında tab gətirməyən bolqar ordusu geri çəkilmək məcburiyyətində qaldı. Sentyabrın 23-24-də əsgərlər arasında kütləvi həyəcanlar başladı. Antanta orduları tərəfindən Saloniki cəbhəsinin yarılması ilə ölkədə sosial qarşıdurma o vaxta qədər görünməmiş dərəcədə kəskinləşmişdir. Müharibədə tam iflasdan yaxa qurtarmağa çalışan bolqar hökuməti, hərbi komandanlıq ordunun geri çəkilməsini güc tətbiq etməklə dayandırmağa çalışsalar da belə cəhdlər heç bir nəticə vermədi. Əksinə, həyata keçirilən belə sərt tədbirlər gərginləşən vəziyyəti daha da ağırlaşdırdı. Geri çəkilən bolqar ordusunun bəzi hissələrində «Sofiyaya doğru», «faciənin günahkarlarına ölüm» şüarları altında kütləvi çıxışlar keçirilirdi. Əsgər həyəcanları getdikcə idarəolunmaz əsgər üsyanına çevrilirdi. Sentyabrın 25-də üsyançı əsgərlər ordu qərargahını, bir gün sonra isə Sofiyanın 30 km-də yerləşən

Rodomir şəhərini tutdular (8,137).

1918-ci il sentyabrın 25-də baş nazir A.Malinov çar Ferdinanda müharibənin uduzulduğu haqqında məlumat vermiş və vəziyyətdən çıxış yolunu barışıq üçün Antanta ordusu komandanlığına müraciət olunması təklifini irəli sürmüşdü. Çaşqınlıq içərisində qalan hökumət bir tərəfdən barışıq üçün Antanta ölkələrinə müraciət etmək, digər tərəfdən paytaxtın müdafiəsi üçün butun imkanlardan istifadə etmək barədə qərar qəbul etdi. Hökumət müxtəlif partiya liderlərinin daxil olduqları nümayəndə heyətinin üsyançılarla danışıqlar aparılması məsələsini həll etməyə çalışdı. Əsgər çıxışlarının getdikcə genişlənməsi və idarə olunmaz vəziyyətə düşməsini böyük təşvişlə qarşılayan hökumət vəziyyətin daha da kəskinləşməsinin qarşısını almaq məqsədilə əvvəllər təqiblərə məruz qoyduğu siyasi rəqiblərinin xidmətlərindən belə istifadə etmək qərarına gəldi. Eyni zamanda üsyançılarla danışıqlar aparmaq məqsədilə müxtəlif partiyaların nümayəndələrinin təmsil olunduqları nümayəndəlik də formalaşdırıldı. Bu nümayəndəliyin tərkibinə vaxtilə müharibə əleyhinə təbliğata görə həbs olunmuş Bolqar Əkinçi Xalq Partiyasının lideri A.Stambolski və onun silahdaşı R.Daskalov da daxil idi. Həmin şəxslərin bolqar cəmiyyətində müəyyən nüfuza malik olduğunu nəzərə alan hökumət onlara üsyançılarla danışıqlar aparmağı həvalə etmişdi. Daha sonra Amerika diplomatı Merfinin müşayiəti ilə Salonikiyə Antanta qoşunlarının komandanlığına nümayəndə heyəti göndərildi. Qeyd etmək lazımdır ki, Amerika Birinci dünya müharibəsinə 1917-ci ildə Antanta tərəfindən qoşulmasına baxmayaraq Bolqarıstanla diplomatik əlaqəni kəsməmişdi. Nümayəndəliyin əsas məqsədi istənilən güzəştlər naminə Antanta ölkələri ilə barışığa nail olmaq, müharibədən çıxmaq və üsyançıların qarşısını almaq idi. Lakin üsyançıların əlində olan Radomirə gələn A.Stambolski və R.Daskalov üsyançılar tərəfinə keçdilər. Sentyabrın 27-də Radomirdə Daskalov Bolqarıstanı Respublika elan etmişdi. A.Stambolski yaradılmış Müvəqqəti hökumətin başçısı, Daskalov isə üsyançı qoşunların komandanı təyin olunmuşdu (11, 137).

1918-ci il sentyabr ayının 25-də Bolqarıstan Antantadan barışıq istədi. Öz növbəsində Antanta dövlətləri də Rusiyadakı inqilabi hadisələrin Bolqarıstanda da baş verəcəyindən qorxurdular. Nəhayət, 1918-ci il sentyabr ayının 29-da Salonikidə barışıq müqaviləsi imzalandı. Müqavilənin şərtlərinə görə Bolqarıstan işğal etdiyi Serbiya və Yunanıstan ərazilərini tərk etməli idi (13, 44). Ordu kiçik miqdarda sərhəd hərbi hissələri istisna olmaqla buraxılmalı, ölkənin ən mühüm strateji məntəqələrini Antanta hərbi hissələri tutmalı və həmçinin onun limanlarından istifadə etməli idi. Bolqar yolları da müttəfiq orduların əlinə keçdi. Beləliklə, 1918-ci ilin sentyabr ayı ərzində Bolqarıstan nəinki 1915-1916-cı illərdə ələ keçirdikləri ərazilərindən məhrum olur, həm də ölkənin ingilislər və serblər tərəfindən tamamilə işğal olunması təhlükəsi yaranırdı. Çoxlu itkilərə məruz qalmış bolqar ordusu tamamilə müqavimət qüvvəsini itirmiş və Bolqarıstan demək olar məğlubiyyət ərəfəsində idi.

Ölkədə siyasi rejimi dəyişmək məqsədilə bolqar hərbçiləri tərəfindən

hazırlanmış və həyata keçirilmiş Vladay üsyanı da nəticəsiz sona yetdi. Belə ki, 1918-ci il sentyabrın 30-da Vladay kəndi yaxınlığında üsyanlar alman hərbi hissələrinin köməyi ilə hökumət qoşunları tərəfindən darmadağın edildilər. Oktyabrın 2-də Radomir süqut etdi. Lakin üsyanın yatırılması Bolqarıstanın daxilində siyasi vəziyyəti sabitləşdirmədi. Antanta blokunun mövqeyini yumşaltmaq və ölkədə monarxiyanın düşmüş nüfuzunu bərpa etmək məqsədilə çar I Ferdinand oğlu III Borisin xeyrinə həmişəlik hakimiyyətdən imtina etdi və Almaniyaya qaçdı. Eyni zamanda alman zabiti formasında Radoslavov da ölkəni tərk etdi. Beləliklə, Ferdinand, Koburqum şəxsi hakimiyyəti süquta uğradı. Məğlub olmasına baxmayaraq Vladay üsyanı monarxiya rejiminə ağır zərbə vurdu. Ölkə Antanta qoşunları tərəfindən işğal olundu. II Balkan müharibəsindən sonra Birinci dünya müharibəsi nəticəsində Bolqarıstanın üzləşdiyi ikinci milli faciə ölkədə dəyişikliklər edilməsini qaçılmaz edirdi (10, 319-320).

1918-ci ilin oktyabrında cəmiyyətdə həmrəylik ideyasını həyata keçirmək məqsədilə A.Malınov yeni hökumətin təşkilinə müxtəlif partiyaların nümayəndələrini cəlb etdi. Lakin bu yeni koalisiyalı hökumət cəmi bir ay fəaliyyət göstərə bildi. Cənubi Dobruca məsələsini Bolqarıstanın xeyrinə həll edə bilməyən A.Malınov istefa verdi. 1918-ci il noyabr ayında hökumət yenidən təşkil olunmuşdu. İkinci dəfə təşkil olunmuş hökumətə tanınmış vəkil Xalq Partiyasının lideri T.Teodorov rəhbərlik edirdi. Hökumətdə demək olar ki, bütün burjua partiyaları təmsil olunmuşdu. Geniş xalq kütlələrinin əsas tələbi isə Vladay üsyanı iştirakçılarına amnistiya verilməsi idi. Hökumət çoxsaylı tələbləri nəzərə alaraq 1918-ci il dekabrın 31-də amnistiya haqqında sərəncam verdi. Lakin hakimiyyət yenə də əldən-ələ keçirdi. 1919-cu ilin may ayında ikinci dəfə təşkil olunan kabinetə Stambolski daxil oldu. Çar III Boris Stambolskiyə yeni hökumət təşkil etməyi tapşırdı. Yeni hökumət 6 oktyabr 1919-cu ildə təşkil olundu və sülh müqaviləsini imzaladı (3,418).

Hadisələrin gedişi, Bolqarıstanın məğlubiyyəti nəhayət böyük itgiləri özündə cəmləşdirən Ney müqaviləsinin bağlanmasına gətirib çıxardı. 1919-cu il noyabrın 27-də Antanta və Bolqarıstan arasında Paris yaxınlığında Ney qəsəbəsində imzalanan müqaviləyə əsasən Bolqarıstan 1913-cü il İstanbul müqaviləsinə görə ona vəd edilən Qərbi Frakiyadakı ərazilərindən məhrum olur, əvəzində isə Egey dənizinə yalnız iqtisadi çıxış hüququ əldə edirdi. Ərazisinin bir hissəsi Yuqoslaviyaya keçdi. Burada Buxarest sülhünə də baxılmış Cənubi Dobruca Rumıniya sərhədləri daxilində qalırdı. Müvəqqəti olaraq Antanta qoşunları ölkə ərazisində qala bilərdi. Beləliklə, müqavilənin şərtlərindən göründüyü kimi Bolqarıstan müharibə zamanı əldə etdiyi bütün ərazilər, hətta müharibəyə qədərki ərazilərinin bir hissəsini itirməklə yanaşı, Balkan müharibəsində əldə etdiyi və Egey dənizinə çıxışı olan Qərbi Frakiyadan əl çəkmək məcburiyyətində qaldı. Ney müqaviləsi imzalandıqdan sonra itirilmiş ərazilərdən on minlərlə bolqar Bolqarıstan ərazisinə gəlmişdi ki, bu da onsuz da çətin vəziyyətdə olan ölkə üçün əlavə problemlər yaradırdı. Bolqarıstan üçün daha ağır fəlakət olan Ney müqaviləsini cəmiyyət «ikinci milli faciə»

kimi qəbul etmişdi (9, 13; 4, 385).

Birinci dünya müharibəsindən sonra 1919-cu il iyun ayında Antanta dövlətləri, onların müttəfiqləri ilə Almaniya arasında imzalanmış Versal sülh müqaviləsindən sonra Bolqarıstan ərazi məsələsinin tam həllini tapmadığını bildirərək Qərbi Frakiyaya olan iddiasını tələb edirdi. Bu məsələyə 1920-1923-cü illərdə keçirilmiş Sevr, San-Remo və Lozanna konfranslarında toxunulmuşdur. Nəhayət, uzun sürən müzakirələrdən sonra Qərbi Frakiyanın Yunanıstanın tərkibində saxlanılması qəbul edilmişdi. Qərbi Frakiya ilə yanaşı Bolqarıstan Kulsk şəhərinin ətrafının bir hissəsini, Çarıbrod, Bosileqrad və Strumi, ona bitişik ərazilərlə birlikdə şəhərlərini itirdi. Bu ərazilər Serb, Xorvat və Sloven krallığına birləşdirildi. Bolqarıstanın iddialarına baxmayaraq Cənubi Dobruca Rumıniyanın tərkibində saxlanıldı. Bununla da Bolqarıstan Egey dənizinə çıxışını itirdi. Bolqarıstana nizami ordu saxlamaq və bir sıra silah növlərindən istifadə etmək qadağan edildi (9, 13; 11, 139).

Beləliklə, çox böyük ümüd bəslədiyi dövlətlərin məğlubiyyəti Bolqarıstanın vəziyyətini çıxılmaz etmişdi. Müharibədə həmin dövlətlərin qalib gələcəyini və bununla da öz ərazi iddialarını reallaşdıracağını düşünən Bolqarıstan hökuməti əksinə, çox böyük məğlubiyyətlər, diplomatik uğursuzluqlarla üzləşdi. Qarşısına tam müstəqilliyə nail olmaq məsələsini qoyan Bolqarıstan nəticədə ərazi itgilərinə məruz qalmış və irihəcmli maddi ziyana düçar olmuşdu.

**ƏDƏBİYYAT**


1. Бирман М.А. Революционная ситуация в Болгарии в 1918-1919 гг. М.: АН СССР, 1957, 390 с.
2. Бирман М.А. Формирование и развитие болгарского пролетариата 1878-1923 гг. М.: Наука, 1980, 352 с.
3. Всемирная история (Бадак А.Н., Войнич И.Е., Волчек Н.М. и др). Итоги Первой мировой войны. В 24 т-х, Т.20, М.: АСТ, 2001, 512 с.
4. Vəliyev T.T., Şahmuradov A.Ş. Slavyan ölkələri tarixi (XIX əsrin ikinci yarısı-XX əsrin əvvəlləri). Ali məktəblər üçün dərslik. Bakı: Vətən, 2012, 566 s.
5. Готлиб В.В. Тайная дипломатия во время Первой мировой войны. М.: Соцэкгиз, 1960, 603 с.
6. Емец В.А. Очерки внешней политики России в период Первой мировой войны. М.: Наука, 1977, 367 с.
7. История Болгарии. Т. I-II. М., АН СССР, 1954-1955, 575 с.
8. История Первой мировой войны. 1914-1918. В 2-х т., Т. 2. М.: Наука, 1975, 607 с.
9. История южных и западных славян. В 2-х т. Т.2. М.: МГУ, 2008, 272 с.
10. Краткая история Болгарии. С древнейших времен до наших дней. М.: Наука, 1987, 568 с.
11. Məmmədov H.N. Bolqarıstan tarixi. Bakı: Elm və Təhsil, 2009, 272 s.
12. Нотович Ф.И. Дипломатическая борьба в годы Первой мировой войны. Т.1. М.-Л.: АНС ССР, 1947, 748 с.
13. Писарев Ю.А. Сербия и Черногория в Первой мировой войне. М.: Наука, 1968, 375 с.
14. Советско-болгарские отношения и связи. Документы и материалы (ноябрь 1917-сентябрь 1944). Т.1. М.: Наука, 1976, 651 с.
15. Стоун Н. Первая мировая война. Краткая история. М.: АСТ, 2010, 224 с.

## НЕУДАЧИ БОЛГАРИИ В ОБЛАСТИ ДИПЛОМАТИИ В КОНЦЕ ПЕРВОЙ МИРОВОЙ ВОЙНЫ

**З.Н.НУРИЕВА**

**РЕЗЮМЕ**

В статье говорится о ряде изменений во внешней политике, сделанных во имя укрепления монархии руководящими кругами Болгарии, столкнувшейся с серьезными проблемами в области дипломатии. Болгария, обладающая важной военно-стратегической позицией, старалась удовлетворить свои территориальные претензии. Однако, безнадежность политики, осуществляемой правительством для того, чтобы отомстить за предыдущие неудачи, привела страну к кризису. В соглашениях, подписанных в тот период с другими странами, не были учтены интересы Болгарии. Все это завершилось национальной трагедией и потерей территориальной целостности.

**Ключевые слова**: поражение, борьба, средства пропаганды, восстание, уровень, внутренняя реакция

## DIPLOMATIC FAILURES OF BULGARIA AT THE END OF WORLD WAR I

**Z.N.NURIYEVA**

**SUMMARY**

The article deals with certain changes in the foreign policy for strengthening of monarchy of the Bulgarian ruling circles which had faced serious problems in diplomacy. Bulgaria, having strategical military position, was trying to secure its territorial claims. Yet, insecurity of the state policy led the country to crisis. Moreover, the interests of Bulgaria were not taken into consideration in treaties of peace signed with other states. Consequently, the country underwent territorial loss and national tragedy.

**Key words:** to defeat, struggle, propaganda means, rebellion, level, inside reaction.